

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 34 (21.695)

17 fevral 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı hüquq mühafizə sahəsində də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətinin azərbaycanlı həmkarları ilə bu sahədə müxtəlif məsələlərlə bağlı aparacaqları danışıqların və fikir mübadiləsinin əməkdaşlıq üçün yeni imkanlar açacağına əminliyini ifadə etdi.

Təxminən 23 il bundan əvvəl Azərbaycana səfər etdiyini vurğulayan İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədi ötən dövr ərzində ölkəmizdə gedən böyük dəyişikliklərin onda dərin təəssürat yaratdığını dedi. Azərbaycanda gedən bu inkişafın bünövrəsinin xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayan Mustafa Purməhəmmədi ulu öndərin xatirəsini böyük ehtiramla yad edərək bildirdi ki, dahi dövlət xadimi Heydər Əliyev Azərbaycan-İran əlaqələrinin genişləndirilməsi işinə də böyük önəm verib.

## Dünya sivilizasiyasına əvəzsiz töhfələr verən Naxçıvan gələn il əhəmiyyətli bir tarixi missiyasını yerinə yetirəcək

### Naxçıvan şəhəri 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı olacaq

*Milli və müasir sivilizasiyaların qovşağında yerləşən Naxçıvan şəhəri bir ildən sonra İslam mədəniyyətinin paytaxtı statusunu təhvil alacaq. İslam mədəniyyətinin tarixində özünəməxsus yer tutan, müasir inkişafı ilə diqqətləri özünə cəlb edən, gündən-günə daha da gözəlləşən Naxçıvanın həm də qədim sivilizasiyanın beşiyi olduğunu nəzərə alsaq, onda çox əhəmiyyətli bir tarixi prosesin şahidi olacağımıza əminlik yaranır. Ekspertlərin fikrincə, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı olması muxtar respublikamızın, ölkəmizin, ümumilikdə isə İslam dünyasının mədəni həyatında yaddaqalan bir hadisə, beynəlxalq səviyyədə mədəniyyət aləmində böyük irəliləyişlərin müjdəçisi kimi tarixdə yerini alacaqdır.*



Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il iyunun 2-də imzaladığı Sərəncama əsasən, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılan Təşkilat Komitəsinin ötən il noyabrın 15-də keçirilən ilk iclasında hazırlıq işləri ilə bağlı məsələlər müzakirə olunub, görüləcək işlərin istiqaməti müəyyənləşdirilib. Bu il yanvarın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipinin hazırlanması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar loqotipin hazırlanması məqsədilə müsabiqə elan edilib. Bundan sonrakı prosesdə rəsmi internet səhifəsi yaradılacaq, Naxçıvanın İslam mədəniyyətinin paytaxtı olmasını əks etdirən videoçarxlar, suvenirlər, zərf və poçt markaları hazırlanacaqdır. Eyni zamanda muxtar respublikada mövcud olan türk-islam mədəniyyət nümunələrinin, dini abidələrin tanıdılması ilə bağlı onlardan bəzilərinin İSESKO-nun siyahısına salınması istiqamətində işlərin aparılması, qədim diyarın dini abidələri, məscid və ziyarətgahları haqqında kitabların nəşri, milli-mənəvi dəyərlərimizə həsr olunmuş sənədli və televiziya filmlərinin hazırlanması nəzərdə tutulur. Təşkilat Komitəsi elmi-kütləvi tədbirlərin də təşkilini diqqətdə saxlayacaqdır. Naxçıvanda "İslam filmləri həftəsi"nin keçirilməsi, İslam ölkələrinin folklor və rəqs qruplarının iştirakı ilə festivalların, müxtəlif idman yarışlarının təşkili də nəzərdə tutulur.

İslam Konfransı Təşkilatının tərkibinə 52 ölkə daxildir. Həmin ölkələrin hər birinin nümayəndəsi rəsmi qaydada Naxçıvana gələcəkdir. Mötəbər tədbirlərin keçirilməsi zamanı isə dünya mediasının diqqəti qədim diyara yönələcəkdir. Bu, muxtar respublikada formalaşan böyük mədəniyyətin, onun zəngin turizm potensialının təkcə İslam ölkələrində deyil, həm də dünyada təbliği baxımından əvəzsiz imkanlar yaradacaqdır. Bundan başqa, həmin ölkələrdə Naxçıvan mədəniyyətini əks etdirən tədbirlərin təqdimatının keçirilməsi də nəzərdə tutulub. Bu da görüləcək işlərə əsaslı töhfə verəcəkdir.

Xatırladaq ki, dünyanın çox böyük coğrafi ərazisini əhatə edən İslam dünyasında bu gün yüzlərlə şəhər mövcuddur. Bu şəhərlər arasında əhalisinin sayına, infrastrukturuna görə diqqəti cəlb edənləri də az deyil. Lakin həmin şəhərlərin əksəriyyəti "İslam mədəniyyətinin paytaxtı" kimi şərəfli bir ada hələ də layiq görülməyiblər. Naxçıvan şəhəri isə tarixiliyi, zəngin mədəniyyəti və bütün istiqamətlər üzrə həyata keçirilən quruculuq işləri nəticəsində "İslam mədəniyyətinin paytaxtı" adına layiq görülüb. Həm də müstəqilliyimizin çox qısa bir tarixi dövründə...

Yaxın tarixə nəzər yetirsək, bunu daha aydın şəkildə görə bilərik. Belə ki, 2001-ci ilin axırlarında Qətərin paytaxtı Doha şəhərində İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin III konfransında İslam Ölkələrinin Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) təklifi ilə "İslam mədəniyyəti paytaxtları" Proqramının təsdiq olunması haqqında Qətnamə qəbul edilib. Bu sənədə müvafiq olaraq, İslam mədəniyyəti paytaxtları İslam Konfransı Təşkilatının üzvü olan ölkələr arasından seçilməli idi. Həmin konfransda qəbul edilmiş digər qərara görə, dünya müsəlmanlarının ziyarət məkanı olan müqəddəs Kəbənin yerləşdiyi Məkkə şəhəri ilk İslam mədəniyyətinin paytaxtı elan edilib. 2009-cu ildə ölkəmizin paytaxtı Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı olub. Həmin il isə qədimliyi və müasirliyi özündə yaşadan Naxçıvan şəhəri yekdilliklə bu mötəbər ada layiq görülüb. 2009-cu ildə Bakı, 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi Azərbaycan xalqının tarixi-mədəni irsinə İslam aləmində verilən yüksək qiymətin nəticəsidir.

Digər xüsusi bir məqam isə ondan ibarətdir ki, bu ada namizəd kimi irəli sürülən şəhər öz ölkəsi, regionu və İslam dünyası səviyyəsində zəngin tarixə malik olmalı, elmin, incəsənətin, ədəbiyyatın inkişafına, həm İslam mədəniyyətinə, həm də bütövlükdə dünya mədəniyyətinə xüsusi töhfə verməlidir. Bundan əlavə, həmin şəhərin həm fərdi, həm də kütləvi şəkildə mədəni tədbirlər təşkil edən xüsusi binaları, elmi mərkəzləri, əlyazma kitabxanaları, arxeoloji qurumları, müvafiq institutları və sair olmalıdır. Bu gün Naxçıvan şəhəri bütün bu meyarlara ən yüksək səviyyədə cavab verir. Azərbaycanın 5 minillik tarixə malik qədim şəhəri olan Naxçıvanda son 21 ildə onlarla nüfuzlu beynəlxalq tədbir keçirilib. Qədim diyarda elmin, mədəniyyətin inkişafı bu gün ölkəmizdə nümunə kimi qəbul edilir. Muxtar respublika türk-islam mədəniyyət nümunələri, dini abidələrlə zəngindir və bəşər sivilizasiyasına çox dəyərli töhfələr verib. Dini ziyarətgahlar – imamzadələr, Əshabi-Kəhf ziyarətgahı bu gün öz abadlığına görə yalnız İslamın yarandığı müqəddəs şəhərlərdəki ziyarətgahlarla müqayisə oluna bilər. Bu gün muxtar respublikada 210 məscid, 26 dini ziyarətgah var. Son 21 ildə Naxçıvan şəhərində, rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində yeni məscidlər tikilib, mövcud məscidlər təmir olunub, abadlaşdırılıb. Naxçıvanda regionun ən böyük ibadət ocağı olacaq – 2500 nəfərin eyni vaxtda namaz qıla biləcəyi məscidin inşası da davam etdirilir. Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsinin səbəbi digər amillərlə yanaşı, həm də muxtar respublikada ziyarətgahların, dini-mədəni abidələrin bərpasının diqqət mərkəzində saxlanılmasıdır.

Yeri gəlmişkən, dünyada dinindən, irqindən asılı olmayaraq, bütün insanlar üç müqəddəs torpaq olduğunu qəbul edirlər. Bunlardan biri Məkkə, ikincisi Qüds, üçüncüsü isə Naxçıvan torpağıdır. Naxçıvan torpağı ona görə müqəddəs sayılır ki, bura Nuh Peyğəmbərin vətənidir. Təkallahlılıq dünyada ilk dəfə olaraq bu torpaqda yayılıb. Əshabi-Kəhfdə qeyb olan insanlar da Allahı tanımaqdan, Uca Yaradanı tapmaqdan ötrü sarayı tərk edib, mağarada Tanrıya pənah gətiriblər...

Muxtar respublikamıza gələn yüksək səviyyəli qonaqların, nüfuzlu alimlərin, mədəniyyət xadimlərinin, tanınmış ekspertlərin də qeyd etdiyi kimi, Naxçıvanda şəhərsalmada xüsusi diqqət yetirilən kərpic və şəbəkə elementləri burada Şərq memarlıq ənənələrinin, şüşə və metal konstruksiyalardan istifadə isə Qərb inşaat texnologiyalarının üzvi vəhdətdə yaşadılmasına imkan verib. Müasir Naxçıvan Qərbyönlü inkişafın əsas meyillərini cəm halda təcəssüm etdirsə də, Şərq mühitinin özünəməxsus aurasını qoruyub saxlaya bilib. Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində Naxçıvan şəhərində əsaslı şəkildə bərpa edilmiş XIX əsrə məxsus Came məscidi, Nuh Peyğəmbərin türbəsi, Zaviyə-mədrəsə binası, həmçinin Möminə xatın, Yusif Küseyiroğlu türbələri, Naxçıvanqala, Xan sarayı, İsmayılxan hamamı həm də böyük İslam mədəniyyətini özündə yaşadan qədimlik ənənəsinin əsaslı nümunələridir. Qeyd edək ki, görkəmli şair-dramaturq Hüseyn Cavidin şəbəkə ilə işlənmiş türbəsi də bu ənənələrdən bəhrələnərək ucaldılıb.

Mübaliğəsiz deyə bilərik ki, həyata keçiriləcək tədbirlər və digər qabaqcıl təşəbbüslər sayəsində muxtar respublikamız bütün dünyada həm 26 illik blokadaya baxmayaraq, yüksək sürətlə inkişaf edən, beynəlxalq tədbirlərin keçirilməsində böyük təcrübəyə malik olan bir diyar kimi, həm də qeyri-adi istedadların doğulduğu və inkişaf etdiyi, Azərbaycan xalqının böyük mədəniyyətinin ən qədim dövrlərdən bəri yaşadıldığı və zaman keçdikcə daha da zənginləşdirilərək dünya mədəniyyət xəzinəsinə bənzərsiz bir töhfə verən gözəl bir məkan kimi tanınacaqdır. Bu mənada əminik ki, gələn il muxtar respublikamızın paytaxtında keçiriləcək mədəni-kütləvi tədbirlər, görüləcək işlər İslam mədəniyyəti tarixində əlahiddə yerə yazılacaqdır. Biz bir daha sübut edəcəyik ki, Naxçıvan islami dəyərlərə sadiqdir və bu dəyərlərin nəsillərdən-nəsillərə ötürülməsi ilə mövcud yüksək mədəniyyətimiz əsaslı şəkildə zənginləşib.

Bu, reallıqdır ki, bəşər sivilizasiyaları arasında İslam sivilizasiyasının daim xüsusi yeri olub. Ümumiyyətlə, İslamın geniş yayılmasını təkcə dini etiqad baxımından izah etmək düzgün olmazdı. İslamın yayılması həm də mədəni ənənə və elmlə bağlıdır. İslamda qələmə və yazıya and içilir. Bütün bunlar göstərir ki, bizim dinimiz elmə çox böyük əhəmiyyət verir.

*Bu da həqiqətdir ki, İslamın mədəni göstəricilərindən biri də kitab mədəniyyətidir. Heç bir din haqqında bu qədər kitab yazılmayıb. İnanırıq ki, 2018-ci ildən başlayaraq İslam dünyasında yazılacaq kitablarda Naxçıvanın adı daha çox qeyd olunacaqdır. Çünki tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynayıb. Bu ənənəni İslam mədəniyyətinin paytaxtı kimi daha böyük əzmlə davam etdirəcəkdir.*

**Rauf KƏNGƏRLİ**



## Sədərəyin nail olduğu sosial-iqtisadi inkişaf hamımızı sevindirir

### *Sərhəd bölgəsi 2016-cı ili uğurla başa vurub*

*"Bu yurd yerimiz hamımız üçün müqəddəs bir məkandır. Çünki ordan başlayır Vətən adlı məmləkətimiz. Coğrafi mövqeyi onun tarixi taleyinə mənfur düşmənlərimizlə qonşuluq qisməti yazıb. Yüz illər boyu özlərinin çirkin əməllərini gah gizlin, gah da aşkarda həyata keçirən daşnakların 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, bu iddiaların yaratdığı məlum hadisələr sədərəklilərin sərhədçi ömrü yaşamaları ilə nəticələnib.*

Ata-baba əmanəti olan torpaqlarımızın qorunması, düşmən tapdağına çevrilməməsi üçün bütün Naxçıvan ayağa qalxıb, Sədərək qəhrəmanlıqla qorunub, "Torpaq uğrunda ölən varsa, Vətəndir", – deyib səngərlərə atılaraq "Təki Vətən sağ olsun" amalı ilə ölümün gözünə dik baxıb eloğullarımız. Bu mücadilədə sağlamlığını itirənlər də az olmayıb. Onlarla igidimiz isə şəhidlik zirvəsinə ucalıb". Bu sözləri 1 nömrəli Sədərək kənd tam orta məktəbində söhbətləşdiyimiz tarix müəllimi Vurğun Əsgərov deyir. Xəyalımda o illəri canlandırmağa çalışıram.

1990-cı il avqust ayının 28-də muxtar respublikanın inzibati ərazi bölgüsünə rayon kimi daxil edilən Sədərəyi ümummilli liderimiz Heydər Əliyev "Qeyrət qalası" adlandırırdı. 2002-ci ilin avqust ayında bölgə ictimaiyyəti ilə görüşən ulu öndərimiz demişdir: ***"Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni bu cür görəndə həddindən artıq sevinirəm. Çünki sizin, yəqin ki, xatirinizdədir. Vaxtilə 1977-1978-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, bu bizimdir, o bizimdir deyirdilər. Ona görə mən burada o vaxt bu qəsəbəni salmaq barədə göstəriş verdim. Layihələr hazırlandı, qəsəbə tikildi və sədərəklilərin bəziləri də buraya köçüb yaşamağa başladılar".***

Rayon ağsaqqalı, müharibə veteranı Cəlil Əliyevlə bir qədər yaxın keçmişə qısa ekskurs edirik. Deyir ki, məlum hadisələr başlayandan sonra – 1990-1993-cü illərdə ermənilər 14 dəfə Sədərəyə hücuma keçiblər. İlk döyüş 1990-cı il yanvar ayının 18-də olub. Həmin ilin mart ayında ermənilər Sədərəyə 300-ə yaxın top mərmisi atıblar, 500-ə yaxın evi, məktəb binalarını, ictimai-inzibati binaları, sosial obyektləri dağıdıblar. Həmin illərdə muxtar respublikamızın hər yerindən, həmçinin ölkəmizin 12 rayonundan Sədərəyə kömək gəlib. Döyüşlərdə 108 nəfər şəhid olub ki, onların 58 nəfəri rayonun yetirmələri idi.

Cəlil Əliyevlə söhbətimiz zamanı ulu öndərin sözlərini xatırlayırıq: ***"Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür".***

Yenə o illərə qayıdırıq. Güllə səslərindən qulaq tutulan, həyət-bacaları dağılan Sədərəkdə 1993-cü il avqust ayının 13-də axırıncı döyüşdə ermənilər "Qeyrət qalası"nı qoruyan qeyrətli oğullara bata bilməyəcəklərini anlayıblar. Sədərək belə qorunub. Bu gün də qorunur. Özü də yüksək səviyyədə – həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan əsgərlərimizin hesabına, həm də dövlətimizin böyük qayğısı gücünə. Bu məqamda istər-istəməz ulu Dədə Qorqudun aforizmə çevrilmiş sözlərini xatırlayırsan: "Torpağı qorumursansa, becərməyinə, becərmirsənsə, qorumağına dəyməz". Sədərəkdə torpaq həm qorunur, həm də becərilir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 mart 2000-ci il tarixdə imzaladığı "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" Sərəncamın böyük əhəmiyyəti xüsusilə vurğulanmalıdır. Məhz bu sərəncam sərhəd bölgəsinin öz simasını tamamilə dəyişməsinə səbəb olub. Adıçəkilən sənəd imzalandıqdan sonra onun icrası istiqamətində görülən işlər, həyata keçirilən digər məqsədyönlü tədbirlər Sədərəyi müasir rayona çevirib. Bunu rayon həyatının bütün sahələrində görmək olar.

...Rayon mərkəzi Heydərabad qəsəbəsi düşmənin bir addımlığındadır və bu gün mənfur ermənilərə ən böyük gözdağıdır. Burada son illərdə müasir tələblərə cavab verən onlarla ikimərtəbəli yaşayış evləri, rayonun idarə, müəssisə və təşkilatları üçün inzibati binalar tikilib. Bu tədbirlər ötən il də davam etdirilib.

` Sədərək Rayon Tikinti-Quraşdırma İdarəsinin rəisi İlqar Sadiqov bildirir ki, 2016-cı ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 24 milyon 372,7 min manat və ya 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 0,4 faiz artaraq 21 milyon 526,6 min manat olub. 2016-cı ildə Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsinin inzibati binasının əsaslı təmiri, içməli su və kanalizasiya xəttinin çəkilişi, yollarda bərpa işləri davam etdirilib. 128 subartezian quyusu təmir olunub, 17 quyuya yeni nasos salınıb. Beş müxtəlif gücdə olan transformator, 123 ədəd istismar müddəti başa çatmış sayğac yeniləri ilə əvəz olunub. İstismar müddəti başa çatmış transformatorlar, 2500 metr uzunluğunda müxtəlifölçülü elektrik xətləri yeniləri ilə əvəz olunub. Yeni tikilən 16 mənzilə qaz xətti çəkilib.

Sədərək Rayon Statistika İdarəsinin rəisi Seymur Məmmədov muxtar respublikada aqrar bölmənin inkişafına göstərilən qayğıdan danışır. Deyir ki, bu qayğıdan Sədərəyə də xeyli pay düşüb. Arpaçay Su Anbarının sağ sahil kanalı, Araz çayından 4 pilləli nasos stansiyası, 105 artezian quyusu vasitəsilə bölgənin təsərrüfat suyuna olan tələbatı tamamilə ödənilir. Rayonda kənd təsərrüfatı texnikaları ilə təchizat da öz yerindədir. Torpaq mülkiyyətçilərinin müxtəlif yardımlarla təmin olunması diqqət mərkəzində saxlanılır. Ötən il, ümumilikdə, 3574 hektar sahədə əkin keçirilib. Yaz və payız əkinlərinə görə 482 torpaq mülkiyyətçisinə güzəştli şərtlərlə 282,734 ton gübrə verilib. Bu tədbirlər aqrar sahədə daha yüksək nəticələrin qazanılmasına stimul olub. Rayonun torpaqları əkinçiliyin bütün sahələri üçün münbitdir. Bölgədə daha çox diqqət yetirilən sahələrdən biri taxılçılıqdır. Ötən il 1982 hektar sahədə taxıl əkilib, hər hektardan orta hesabla 32,3 sentner olmaqla, 6407 ton məhsul tədarük edilib. Cari ilin məhsulu üçün 1815,4 hektar sahədə payızlıq taxıl əkini aparılıb. İkinci çörək sayılan kartof əkini də diqqətdə saxlanılıb. Belə ki, torpaq mülkiyyətçiləri 98 hektar sahəni kartof üçün ayıraraq 1878 ton məhsul toplayıblar. Bostançılıqda da qazanılan uğurlar ürəkaçandır. 2016-cı ildə 188 hektar sahədən 2402,6 ton məhsul yığılıb. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılıb. Bəhs olunan dövrdə sədərəklilər 415 hektar tərəvəz əkini sahələrindən 5256 ton məhsul toplayıblar. Rayonda barverən meyvə bağlarından 536 ton meyvə, 1406 ton üzüm tədarük edilib. 2016-cı ilin yaz və payız aylarında keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində 3 hektar sahədə meşəsalma, 7 hektar sahədə bərpa işləri aparılıb. Həmin sahələrə 5800 ədəd meyvə ağacı, 1000 ədəd üzüm tingi əkilib. Dənli və dənli-paxlalı, günəbaxan əkilmiş sahələrdə də yüksək məhsuldarlığa nail olunub.

İqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı xüsusiyyətlərə malik olan təsərrüfat sahəsi kimi arıçılığın inkişafı da diqqət mərkəzində saxlanılıb. "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrasına başlanılıb.

Rayonda sənaye məhsullarının istehsalına da diqqət artır. Ötən il 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çox olmaqla, 4507 min manatlıq sənaye məhsulu istehsal edilib.

* * *

Sədərək Rayon İcra Hakimiyyətinin şöbə müdiri Samil Kazımovun sözlərinə görə, bəhs olunan dövr ərzində rayonda fəaliyyət göstərən müxtəlif təşkilatların bölgənin daha da inkişafına verdiyi töhfələrin sayı getdikcə artır. Təhsil, Mədəniyyət və Turizm şöbələri, səhiyyə müəssisələri, Yol Təmir İstismar Sahəsi, Kommunal Müəssisələr Kombinatı, Rabitə və Qaz İstismarı idarələri, digər müəssisə və təşkilatlar üzərlərinə düşən tapşırıqları, qarşıya qoyulan vəzifələri yerinə yetirməyə səy göstəriblər.

Sədərəkdə əhalinin məşğulluğu diqqət mərkəzində saxlanılıb, iki əmək yarmarkası keçirilib, 142 nəfər işaxtaran qeydə alınıb, onlardan 122 nəfəri daimi işlə təmin olunub. Bu dövrdə Məşğulluq Mərkəzinə müraciət edən 14 məhdud fiziki imkanlı vətəndaşın xahişinə də həssaslıqla yanaşılıb. Onlardan ikisi qadındır.

Rayon sakinlərinin hansı ilə həmsöhbət olduqsa, onlara göstərilən diqqət və qayğıdan razılıqlarını bildirdilər. Sədərək kəndinin 95 yaşlı sakini, yurdsevər el ağsaqqalı Ələkbər Cabbarov söhbətinə 90-cı illərin əvvəllərindən başladı:

– Ulu öndərimizin həmin illərdə dəfələrlə Sədərəyə gəlməsi, bölgə sakinlərinə tövsiyələrini verməsi təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qorudu. Bu gündən sabaha ümidləri olmayan sədərəklilər də dahi şəxsiyyətin ətrafında sıx birləşdilər, hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inandılar.

*Bu gün qovuşduğumuz bu işıqlı həyat tərzi məhz Heydər Əliyev ideyalarının işığı hesabına mümkün olub... Bu işığın heç vaxt sönməyəcək ziyası sərhəd bölgəsini daha xoş sabahlara aparır.*

**✍ Muxtar MƏMMƏDOV**

## Naxçıvanda keyfiyyət amilinə ciddi diqqət yetirilir

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanvar ayında fəaliyyətini gücləndirmiş, qarşıya qoyulmuş vəzifələrin icrasını nəzarətdə saxlamışdır.***

Komitənin laboratoriyasında yoxlamadan keçirilən 1279 smartkarttipli məişət qaz sayğacının normativ göstəriciləri standarta uyğun olduğundan nişanlanmış, standarta uyğun olmayan 13 qaz sayğacı geri göndərilmişdir. Bu dövrdə istehsal və idxal olunan məhsulların keyfiyyətinə nəzarət işi də diqqətdə saxlanılmış, yerli istehsal məhsullarının keyfiyyətinə nəzarət məqsədilə 179 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır. Həmçinin ötən ay təsərrüfat subyektlərinə 142 uyğunluq sertifikatı və 3 təsdiqedici sənəd verilmişdir.

Muxtar respublikada xidmət müəssisələrində mövcud standartlara əməl olunması, aid qurumlarla birlikdə yoluxucu xəstəliklərin qarşısının alınması istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən təsdiq edilmiş "Muxtar respublikada əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət üzrə birgə Tədbirlər Planı"nın icrasını təmin etmək məqsədilə 49 istehsal və xidmət obyektində maarifləndirmə xarakterli monitorinqlər aparılmış, 206 obliqat qrup işçinin hepatit virusuna qarşı qan müayinəsindən keçirilməsi təmin edilmişdir.

Qeyd olunan dövrdə 28 məktəbin bufetində, 4 təhsil müəssisəsinin bufet və yeməkxanasında və 11 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında, elektrik və qaz cihazlarının satışını həyata keçirən 52 təsərrüfat subyektində, 76 ictimai iaşə və xidmət sahəsində maarifləndirmə xarakterli monitorinqlər aparılmışdır.

***Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Gənclərin hərtərəfli təhsil alması üçün lazımi şərait yaradılıb

***Muxtar respublikada yaradılan müasir təhsil infrastrukturu tədrisin hərtərəfli təşkilinə imkan verir. Xüsusilə yeni texnologiyaların tətbiqi şagirdlərə keçirilən dərsləri daha yaxşı qavramağa şərait yaradır.***

Yanvar ayında təhsil müəssisələrində qarşıya qoyulan vəzifələrin icrası diqqətdə saxlanılmış, Bəhruz Kəngərli Muzeyi və Xatirə Muzeyi, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə ümumtəhsil məktəbləri arasında əlaqə yaradılaraq distant dərslər keçirilmişdir. Bu dövrdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Universitetində, "Naxçıvan" Universitetində, Naxçıvan Müəllimlər İnstitutunda və orta ixtisas təhsili müəssisələrində çalışan elmi dərəcəli müəllimlər tərəfindən ümumtəhsil məktəblərində 213 saat nümunəvi dərslər tədris olunmuşdur.

Muxtar respublikada şagirdlərin biliklərinin yoxlanılmasında test-sınaq imtahanları mühüm əhəmiyyət daşıyır. Ötən ay ümumtəhsil məktəbləri şagirdlərinin iştirakı ilə test-sınaq imtahanları keçirilmişdir. Həmçinin Azərbaycan Respublikası məktəblilərinin fənn olimpiadalarının rayon mərhələsi keçirilmiş, 202 şagird respublika mərhələsinin yarımfinalında iştirak etmək hüququ qazanmışdır. Bu dövrdə VII–XI sinif şagirdləri arasında "Torpaq uğrunda ölən varsa, Vətəndir" mövzusunda inşa yazı müsabiqəsinin, "Şəhidlər ölməz, hər zaman anılar" adlı şeir müsabiqəsinin yekun mərhələsi olmuş, qaliblər diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

Muxtar respublikamızda peşə təhsilinin inkişafı ilə əlaqədar həyata keçirilən tədbirlərin nəticəsidir ki, yanvar ayında peşə təhsili müəssisələrini 4 ixtisas üzrə 233 müdavim bitirmiş, peşə məktəblərinə 465 müdavim cəlb olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Bu il bəşər tarixində ən böyük qanlı hadisələrdən biri – Xocalı soyqırımının iyirmi beşinci ildönümü tamam olur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələrinin törətdiyi bu faciə nəticəsində Azərbaycanın qədim şəhərlərindən biri olan Xocalı yerlə yeksan edilib, əhalisi soyqırımına məruz qalıb. Xalqımız bu faciəni unutmur, soyqırımına məruz qalmış insanların xatirəsi Azərbaycanda və dünyanın əksər ölkələrində yad edilir.*

## Xocalı qədim tarixə, zəngin mədəniyyətə malik diyardır



Xocalı şəhəri işğaldan əvvəl

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında" 2017-ci il 24 yanvar tarixli Sərəncamı bu sahədə həyata keçiriləcək tədbirlərin əhatəliliyindən xəbər verir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Sərəncamı da analoji tədbirlərin muxtar respublikada geniş həcmdə həyata keçirilməsini nəzərdə tutur. Bəs 25 il bundan əvvəl erməni vəhşiliyinin nəticəsi olaraq dağıdılmış Xocalı şəhərinin tarixi haqqında nə bilirik? Qədim və zəngin mədəniyyətə malik Azərbaycan tarixində Xocalı hansı rola malikdir?

Əvvəlcə qeyd edək ki, Xocalı rayonu 1991-ci il noyabr ayının 26-da Əsgəran rayonunun bazasında yaradılıb. Xocalı Dağlıq Qarabağda Şuşadan sonra əhalisinin sayına görə ikinci rayon idi. Rayonun sahəsi 0,97 min kvadratkilometr, sakinlərinin sayı işğaldan öncə 24,4 min nəfər idi. Dağlıq ərazidə yerləşən rayonda 1 şəhər, 2 qəsəbə, 50 kənd olub. Xocalı şəhəri Ağdam şəhərinin 18, Xankəndi şəhərinin 14 kilometrliyində yerləşir. Tarixçilərin əldə etdikləri məlumatlara görə, Xocalı Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Tədqiqatçılar bildirirlər ki, Azərbaycan tarixinin öyrənilməsində Xocalı mədəniyyətinin tədqiqi mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Xocalı tarixi-memarlıq abidələri ilə zəngin diyardır. Buna misal olaraq, miladdan əvvəl XIII-VII əsrlərə aid Xocalı-Gədəbəy mədəniyyəti abidələrini, Son Tunc və İlk Dəmir dövrlərinə aid nekropolu, Kurqan çölünü, XIV əsrə aid Hacı Əli günbəzini, 1356-cı ildə inşa olunmuş dairəvi türbəni, XVIII əsrdə tikilmiş Əsgəran qalasını və başqalarını göstərmək olar.

Məlumat üçün bildirək ki, Azərbaycanda Kiçik Qafqaz dağ və dağətəyi rayonlarında, Kür-Araz çayları arasında Son Tunc və İlk Dəmir dövrlərinə aid arxeoloji mədəniyyət Xocalı-Gədəbəy mədəniyyəti abidələri adlandırılır. Xocalı-Gədəbəy mədəniyyəti abidələri emalatxanalar, qəbirlər və ibadətgahlardan ibarətdir. Mədəniyyətin yayıldığı ərazidə misəritmə kürələri, mis və tunc məmulatları hazırlayan emalatxanaların qalıqları, çaxmaqdaşından alət və silahların istehsal tullantıları aşkar edilib. Buradan Neolit dövründə yaşayan insanlara aid əmək alətləri də tapılıb. Torpaq, daş qutu qəbirlər və kurqanlarda ölülər bükülü, uzadılmış, oturdulmuş vəziyyətdə dəfn olunub. Qəbirlərin keramikası, demək olar ki, eynidir. Araşdırmalar zamanı qəbirlərdən tunc, qılınc, təbərzin, toppuz, ox, yaba, xəncər, nizə ucluğu, qazan, cilov, bilərzik, üzük, sümükdən hazırlanmış bəzək əşyaları, gildən və daşdan hazırlanmış müxtəlif məmulatlar aşkar edilib. Bu faktlar sübut edir ki, Xocalı Azərbaycanın qədim yaşayış məskənlərindən biridir. Keçmiş SSRİ-nin tanınmış etnoqraf alimləri və yerli etnoqraflar qədim dövrə aid abidələri daha çox Xocalı və Xankəndi yaxınlığında apardıqları tədqiqatlar zamanı tapıblar. Onlar arxeoloji qazıntılar zamanı kurqanlara, qəbir daşlarına və müxtəlif yaşayış məskənlərinə rast gəliblər. Qədim Xocalı qəbiristanlığındakı 11 saylı kurqandan tapılan muncuqlar, üzərində eramızdan əvvəl 1307-1275-ci illərdə Assuriya çarı Adadnirariyə aid mixi yazılar olan müxtəlif çeşidli bəzək əşyaları, saxsı qablar, şüşə muncuqlar yerli sakinlərin Şərq ölkələri ilə geniş iqtisadi-mədəni əlaqələrindən xəbər verir. Azərbaycanın Kiçik Qafqaz dağ və dağətəyi ərazilərində eramızdan əvvəl XIII-VII əsrlərdə yayılmış arxeoloji mədəniyyət ilk dəfə Xocalı yaşayış məskənində və Gədəbəy rayonunda tətbiq olunduğundan bu abidələr Xocalı-Gədəbəy mədəniyyəti nümunələri adlandırılır. Alimlər sübut ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti Son Tunc və Erkən Dəmir dövrlərinin xarakterik xüsusiyyətlərini özündə cəmləşdirir. Aparılan arxeoloji tədqiqatlar Xocalı qəbiristanlığında mühüm maddi-mədəniyyət nümunələrinin aşkar olunması ilə nəticələnib. Qəbiristanlıqda daş qutu və kurqanlar daha çox diqqəti cəlb edir. Burada müxtəliftipli saxsı qablar, qılınc, xəncər, nizə, ox ucluğu, balta kimi silahlarla yanaşı, qızıl, tunc, balıqqulağı, əqiq, şüşə və sairdən hazırlanan bəzək əşyaları, tunc əmək alətləri aşkar edilib. Qəbiristanlıqda çoxlu sayda qoç və yəhər şəkilli qəbir daşları, müqəddəs ziyarətgahlardan "Seyid Cəlalın ocağı", "Cahan nənənin ocağı" kimi yerlər var. Buradakı maraqlı tarixi abidələrdən biri də Xocalı şəhəri və Əsgəran qəsəbəsi arasında, Qarqar çayının sağ və sol sahillərində XVIII əsrə aid olan Əsgəran qalasıdır. İki istehkamdan ibarət olan qalanı Qarabağ xanı Pənahəli xan tikdirib. Sağ sahildəki qala bürcü ikiqat daş divarlardan ibarətdir. Sol sahildəki qala dördkünc bürclüdür. Divarların qalınlığı 2-3 metrdir. 1810-cu ildə Rusiya ilə İran arasında aparılan sülh danışıqları məhz Əsgəran qalasında baş tutub. Bundan əlavə, rayonun Kərkicahan qəsəbəsində yerləşən 3 qəbiristanlıq da qədim tarixi ilə diqqət çəkir. Burada 1400-cü illərə aid yazısı olan qəbirlər, 800 il əvvələ aid müsəlman qəbiristanlığının qalıqları var. Rayonun Kosalar kəndi ərazisində isə "Məhəmməd ağanın otağı" tarixi abidəsi, "Darılı Piri", "Ələm ağacı" kimi ziyarətgahlar yerləşir.

Təəssüflər olsun ki, tarixi qədim dövrlərə gedib çıxan, maddi-mədəniyyət nümunələri ilə zəngin olan Xocalının işğal olunması rayon ərazisindəki tarixi, mədəni və dini abidələrin də dağıdılması ilə nəticələnib. Erməni vandalizmi nəticəsində Kərkicahan qəsəbəsi, Kosalar, Cəmilli və Meşəli kəndlərindəki qəbiristanlıqlar, dini abidələr, o cümlədən Xocalı şəhəri və digər yaşayış məntəqələri, onlarla təhsil, mədəniyyət və səhiyyə müəssisələri dağıdılıb. Bu baxımdan Xocalıda həm də bütöv bir Azərbaycan mədəniyyəti və tarixi soyqırımına məruz qalıb. Ancaq Azərbaycan xalqı hansı yolla olursa-olsun, torpaqlarını işğalçılardan azad edəcək. O zaman Xocalının tarixi də yeni araşdırmalara cəlb olunacaq, bu qədim diyarımızın keçmişi tariximizə, mədəniyyətimizə yeni töhfələr bəxş edəcək. O günə isə çox qalmayıb. Tezliklə Cocuq Mərcanlı nümunəsini bütün işğal olunmuş rayonlarımızın simasında görəcəyik.

## Qəbiristanlıqlarda yaradılan səliqə-sahman muxtar respublika sakinləri tərəfindən təqdir olunur

***Azərbaycan xalqı hər zaman adət-ənənələri, milli-mənəvi dəyərləri ilə seçilən xalq olub. Bu dəyərlər əsrlərin sınağından üzüağ çıxaraq müasir dövrümüzədək yaşadığımız həyat tərzinin bir hissəsinə çevrilib. Dəyərlərimizi yaşadan isə bizə böyüklərimizdən miras qalmış əxlaqımız, soy-kökümüzə bağlılığımız və bu ənənələrimizin dini dəyərlərimizlə bir-birini tamamlamasıdır. Ancaq etiraf edək ki, bəzən dəyərlərimizi mənəvi aşınmalara məruz qoyan da bizik. Halbuki hərtərəfli inkişaf milli və mənəvi sistem üzərində qurularkən daha sağlam olur. Əks halda, bunun mənfi təsiri də elə ilk olaraq bizə – cəmiyyətə dəyir. Söhbət son illərdə Azərbaycan cəmiyyətində əsas müzakirə mövzusuna çevrilmiş israfçılıqdan, bu israfçılığın insanlara "bəxş etdiyi" psixoloji zərbələrdən və bunun doğurduğu acı nəticələrdən gedir. Halbuki istənilən cəmiyyətdə israfçılıq heç kim tərəfindən müsbət xarakterizə olunmur.***

Təqribən, 10 il bundan əvvəl Naxçıvanda təşkil edilən yas məclislərindəki vəziyyət heç də ürəkaçan deyildi. Yaxını rəhmətə getmiş birisi "el qınağında" olmamaq üçün yeddi gün məclis təşkil etməli, hər gün ehsan süfrəsi açmalı, məclis qurtardıqdan sonra isə mərhumun qəbrini düzəltdirmək üçün yenidən qollarını sıvamalı idi.

Dinimiz və dəyərlərimizlə heç cür uyuşmayan bu "ənənəvi xəstəlik"dən məhz muxtar respublikada bu sahədə aparılmış islahatların nəticəsində qurtulduq. Muxtar respublika rəhbərinin nümunəvi addımları Naxçıvanın hər yerində yas məclisləri üçün hərtərəfli şəraiti olan binaların tikilməsi, İslamın olduğu kimi təbliğ edilməsi ilə nəticələndi. Hər kəs şahidi oldu ki, milli və dini dəyərlər bir-birini tamamladıqda bunun xeyri də əhaliyə olur.

Gündəmdə olan növbəti məsələ isə qəbiristanlıqlardakı anormal vəziyyət idi. Qəbiristanlıqlara baxanda insanların maddiyyat və mənəviyyatındakı çatışmazlıqları görmək olurdu. Əksəriyyət daha çox yeri zəbt edən qəbirətrafı dəmir çəpərlərə üstünlük verirdi. Bəziləri isə qəbirləri qardan, yağışdan qorumaq üçün üzərlərinə dam örtükləri də düzəltdirirdi.

Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev deyir ki, qəbiristanlıqla əlaqəli mövzular, qəbir ziyarəti kimi əməllər İslam fiqh elmində mühüm yer tutur. Məhəmməd Peyğəmbərin qəbrin geniş, dərin qazılması və səliqəli düzəldilməsinə dair tövsiyəsi var. Cənazə dəfn edildikdən sonra qəbrin bilinməsi və tapdalanmaması üçün üstü torpaqla bir qarış və ya bir az yüksəldilir. Peyğəmbərin Osman ibn Mazun qəbri başına bir daş dikdiyi və "Bununla qardaşımın qəbrini tanıyar və taparam" dediyi rəvayət edilir. Qəbirlərin itməməsi və kimə aid olduğunun bilinməsi üçün üzərində adının yazılması uyğundur. Qəbirlərin xarici görünüşünə gəlincə, dinimizdə qəbir üzərində cah-cəlallı tikililərin olması yaxşı əməl hesab edilmir. Bunun əsas səbəbi tövhid inancının qorunması, göstəriş və israfın qarşısının alınmasıdır. Bununla yanaşı, qəbirlərin bəzədilməsi, üzərində şam yandırılması, türbələrə, ağaclara parça bağlanması, qəbir yanında qurban kəsilməsi yanlış davranışlardır. Belə ki, böyük İslam Peyğəmbəri "İslamda qəbirlərə qurban kəsilməz" buyurmuşdur. Bunları sadalamaqda məqsədimiz odur ki, İslam dinində qəbirlərə olan münasibət haqqında bu kimi tövsiyələr var. Bu mövzuda Məhəmməd Peyğəmbər daim diqqətli davranmağı tövsiyə etmiş və özü də hər kəsə nümunə olmuşdur.




Qeyd edək ki, bu sahədə zəruri tədbirlərin keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 noyabr tarixli Qərarı var. Qərara əsasən mövcud olan məzarlıqlarda dəfn zamanı qəbirlərin milli-dini dəyərlərin tələblərinə və qaydalara uyğun ölçüdə salınması nəzərdə tutulub. Hər bir qəbir üçün ölçü qaydaları müəyyən olunub. Qaydalara əsasən hər bir məzarın eni 1 metr 40 santimetr, uzunluğu isə 2 metr 20 santimetr olaraq müəyyənləşdirilib. Artıq muxtar respublikanın bütün bölgələrində ümumi ərazisi əvvəlcədən çəpərlənmiş qəbiristanlıqlarda abadlıq işlərinə və dəmir çəpərlərə alınmış məzarların çəpərlərinin vəfat edənlərin yaxınları tərəfindən söküntüsünə başlanılıb. Hazırda bir çox yerlərdə işlər artıq yekunlaşır. Həyata keçirilən tədbirləri muxtar respublika sakinləri böyük rəğbətlə qarşılayırlar.

*Vilayət Kazımov – Ordubad rayon Gənzə kənd sakini:* "Belə tədbirlərin həyata keçirilməsi çox zəruri və təqdirəlayiqdir. Qəbirlər elə olmalıdır ki, varlı-kasıb bilinməsin. Birinin imkanı var, bahalı daşlardan, mərmərdən istifadə edir, digərinin imkanı yoxdur belə etməyə. Sonra da başlayırıq bunları müqayisə etməyə. Ona görə də belə bir tədbirin həyata keçirilməsini alqışlayıram".

*Nahas Səfərov – Kəngərli rayon Qarabağlar kənd sakini, ziyalı:* "Bir neçə gündür, kəndimizdəki qəbiristanlıqlarda qəbirlərin ətrafındakı dəmir çəpərlərin sökülməsinə və ətrafda səliqə-sahmanın yaradılmasına başlanılıb. Kənd sakinləri böyük fəallıqla bu işləri görürlər. Belə bir təşəbbüsün irəli sürülməsini təqdir edirik. İnanırıq ki, bu addım gələcəkdə insanları artıq məsrəflərdən çəkindirəcək, qəbirlərin düzəldilməsində dinimizin tövsiyələri əsas götürüləcək".

*Əli Qəribov – Şərur şəhər sakini:* "Qəbiristanlıqlarda belə bir tədbirin həyata keçirilməsi dinimizə uyğundur. Axı kimə lazımdır dəbdəbəli qəbirlər və ya onlara izafi çəkilən xərclər? İslam dini hər kəsin birlik, bərabərlik və həmrəylik şəraitində olmasını istəyir. Dinimizdə varlı və kasıb arasında heç bir fərqin qoyulmaması tövsiyə olunur. Buna görə də bu sahədə islahatların aparılmasına çox böyük ehtiyac var idi. Sevindirici haldır ki, artıq muxtar respublikamızın bütün bölgələrində bu işə başlanılıb".

*Talıb Nəbiyev – Naxçıvan şəhər sakini:* "Naxçıvanlılar hər zaman öz dəyərlərinə sədaqətləri ilə seçiliblər. Bir zamanlar yas məclislərində də izafi xərclər baş alıb gedirdi, mərhum sahibləri məclisi harada və necə təşkil edəcəklərini saatlarla müzakirə edirdilər. Ancaq indi bu sahədə Naxçıvan nümunəvi bir regiona çevrilib. Qəbiristanlıqlarla bağlı həyata keçirilən tədbirlər də tez bir müddətdə başa çatdırılaraq daha bir nümunəni ortaya qoyacaq".

Bəli, İslam dininin dəyərlərinə ehtiramla yanaşmaq hər kəsin borcudur. Allahın yaratdıqları arasında insana verdiyi dəyər və ona hörmət səbəbi ilə qəbirləri qorumaq, təmizləmək, səliqəli şəkildə nizamlamaq, təmir etmək, dəfn və ziyarət əsnasında qəbirləri tapdalamamaq, üzərində oturmamaq tələb olunur. Bundan əlavə, qəbiristanlıqlarda əkilən hər ağacın, bitkinin Allahı təsbih etdiyi, bunun da ölüyə savabının yazıldığı bildirilir. İnanırıq ki, muxtar respublikamızın sakinləri bundan sonra qəbiristanlıq ərazilərində yaşıllıqların salınmasında, yeni ağacların əkilməsində fəallıq nümayiş etdirəcəklər. Ümumilikdə isə muxtar respublikamızda həyata keçirilən bu kimi tədbirlər insanları mənəvi saflığa, qənaətcil olmağa, həmrəylik nümayiş etdirməyə çağırır. Digər tərəfdən isə qəbiristanlıqlarda görülən işlər bir il sonra Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı kimi təqdimatında mühüm rol oynayacaq. Bu isə həyata keçirilən tədbirlərin mahiyyətini daha da artırır.

*Səhifəni hazırladı:* Səbuhi HƏSƏNOV

*Xələflər və sələflər*

# Bir ailənin sənət tarixi

## *Xədicə Qazıyeva, Sofya Hüseynova və Rövşən Hüseynov*

***Naxçıvan teatrında uzun illər öz sənət bacarığı, istedadı ilə tamaşaçıların sevimlisinə çevrilən Xədicə Qazıyeva ömrünü bu teatra həsr edən Xalq artisti Sofya Hüseynovanın anası, Naxçıvan teatrının təkrarolunmaz sənətkarı, Xalq artisti Rövşən Hüseynovun nənəsidir. Bu gün Naxçıvanda çox az ailə var ki, üç nəsil bir sənətin davamçılarını yetişdirsin.***







Bu ailənin sənət ənənəsinin banisi Xədicə xanım 1920-ci illərdə Bakıda teatrda fəaliyyət göstərib. Elə həmin illərdə Naxçıvana ezam olunan hərbçi həyat yoldaşı ilə muxtar respublikaya gələndə teatrda onun kimi qadın aktrisalara çox ehtiyac vardı. Xədicə Qazıyevanın peşəkarlığı ilk illərdən teatrın truppasının işini xeyli asanlaşdırıb. Çünki uzun illər Bakıdakı teatrda olduğu kimi, Naxçıvan teatrında da qadın rollarını ya kişilər, ya da qeyri-millətlərin nümayəndəsi olan, Azərbaycan dilində danışmaqda çətinlik çəkən qadınlar oynayırdı. 1923-cü ildə Naxçıvan teatrına Dövlət Teatrı statusu verilib. Muxtariyyət illərində isə Bakıdan qadın aktrisalar teatra dəvət alıblar. Amma onlar da bir neçə tamaşa oynayandan sonra yenidən geri qayıdırdılar. Nəticədə isə peşəkar qadın aktrisalar sarıdan teatrda ciddi boşluq hiss olunurdu. Həmin vaxtlar Xədicə xanımın Naxçıvana gəlişi teatr ictimaiyyətini sevindirib. İstedadı ilə seçilən aktrisanın ilk rolu "Qaçaq Kərəm" pyesində Sirab obrazı olub. Sonra Cəfər Cabbarlının "Sevil" əsərində Edilyanı, Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində Xumarı oynayıb. Onun oynadığı rolların sayı 200-ə çatır. Bu isə Naxçıvan teatrında çox az sənətkara qismət olan bir taledir. Xədicə xanımın qızı Sofya da aktrisa olmaq qərarına gələndə bu, anasını heyrətləndirməyib. Çünki o, qızının istedadına yaxşı bələd idi.

Sofya Hüseynova 1926-cı ilin 17 fevralında Bakı şəhərində anadan olub. O, anasının ciddi təkidi ilə 1942-ci ildə peşəkar aktrisa ömrünü Naxçıvan teatrına bağlayır. Amma Sofya xanım deyirdi ki, anası onu hələ 3 yaşı olanda teatra aparıb: "Orda Cəfər Cabbarlının "Sevil" tamaşasında balaca Gündüzün sözsüz səhnələrini oynamışam. Deməli, 3 yaşımdan səhnədəyəm".

İlk peşəkar rolu isə Səməd Vurğunun "Vaqif" dramında gürcü qızı Tamara obrazı olub. Böyük Vətən müharibəsi illərində ailə vəziyyətilə əlaqədar Bakıya gedib. Amma 1955-ci ilin yaradıcılıq mövsümündə naxçıvanlı tamaşaçılar onu yenidən doğma səhnədə İslam Səfərlinin "Göz həkimi" pyesində Nərminə rolunda görürlər. Zahiri görünüşü və Xədicə xanımdan heç də geri qalmayan istedadı onu az zamanda sənətsevərlərin sevimlisinə çevirir. Aydın, səlis diksiyası, peşəkar səhnə davranışı, ən əsası sərbəstliyi sonradan Sofya xanımın obrazlar silsiləsinin yaranmasına gətirib çıxarır. Dünya səviyyəli müasir və klassik dramaturqların əsərlərində yaratdığı maraqlı rollar həm də mürəkkəbliyi ilə seçilirdi. Amma təcrübəli aktrisa üçün bu, artıq adi hal idi. Ona görə də Baxşı Qələndərli, Miribrahim Həmzəyev, Vəli Babayev kimi rejissorlar məmnuniyyətlə öz tamaşalarında ona rollar təklif edirdilər. A. Ostrovskinin "Günahsız müqəssirlər"ində Kruçinina, "Cehizsiz qız"ında Larisa, gürcü A.Saqarelinin "Xanuma"sında Xanuma, Lope de Veqanın "Bostan iti"ndə Diana, S.S.Axundovun "Eşq və intiqam"ında Zəhra, Ü.Hacıbəyovun "O olmasın, bu olsun"unda Gülnaz, C.Cabbarlının "Sevil"ində Edilya, K.Ağayevanın "Məhsəti"sində Tərgül və sair rollarının hamısı uğurla tamaşaçılara təqdim edilib. Sofya xanımın üstünlüyü rolları özününküləşdirmək bacarığı idi. Hər bir obrazın sanki daxili aləmini açır, onu olduğu kimi hissləri, düşüncələri ilə tamaşaçıya təqdim edirdi. Bu ustalığına görə 1974-cü ildə Azərbaycan Respublikasının Əməkdar, 1982-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunub. Prezident təqaüdçüsü olan Sofya Hüseynova həm də vətənin yüksək mükafatına, "Şöhrət" ordeninə layiq görülmüşdü. Sofya xanım 2015-ci ildə Naxçıvan şəhərində vəfat edib. Amma özündən sonra Naxçıvan teatrına Rövşən Hüseynov kimi Xalq artisti bəxş edib.

Bu ailədə sənət növbəti davamçıda özünü daha güclü şəkildə büruzə verib. Belə ki, teatrın səhnəsində Sofya xanımın anası Xədicə Qazıyevadan, Rövşən Hüseynov isə Sofya xanımdan fərqli olaraq özünəməxsus obrazlar yaradıb. Rövşən Hüseynov 1954-cü il fevralın 6-da Naxçıvanda doğulub. Uşaqlıq illərini teatrın səhnəsində keçirən Rövşən sonradan elə anası və nənəsi kimi ömrünü böyük səhnəyə bağlayıb. Uşaqlıq illərində müxtəlif tamaşalarda müəyyən epizodlarda çıxış edib, 1968-ci ildən, yəni 14 yaşından teatrın truppasına aktyor kimi qəbul olunub. Azərbaycanda tanınan təcrübəli rejissorlar Baxşı Qələndərli, Vəli Babayev, Miribrahim Həmzəyev kimi sənətkarların quruluş verdiyi tamaşalarda Rövşənin özünəməxsus rollar silsiləsi başlayıb. Biz onun rollarının siyahısını sadalamaq niyyətində deyilik. Sadəcə, sayını deyə bilərik – 1968-ci ildə Süleyman Sani Axundovun "Laçın yuvası"ndakı Səfərdən başlayan və bir neçə il qabaq Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı"ndakı xalq qəhrəmanı Babək roluna qədər 150 müxtəlif xarakterli qəhrəman səhnədə Rövşən Hüseynovun ifası ilə tamaşaçıya təqdim edilib.

Maraqlı hal odur ki, oynanılan rolların əksəriyyəti əsərin baş qəhrəmanı olub. Bu obrazların hər biri də özünəməxsus xarakter cizgiləri ilə, yaddaqalan şəkildə və bir-birini təkrar etmədən yaradılıb. Çoxu da komediya obrazlarıdır. Əslində isə Rövşən Hüseynov çox ciddi aktyordur. Elə buna görə də onun oynadığı komik obrazlar ciddiliyi ilə seçilir. Bunu da tamaşaçı yaxşı bilir. Amma tarixi dramlar, faciələrdə yaratdığı obrazlar da onlardan geri qalmır. Hər biri özünəməxsus şəkildə aktyor ifası ilə tamaşaçının yadında qalır. Bəzən aktyorların yaradıcılığını komik və ya dramatik amplualara bölürlər. Rövşən Hüseynovsa əsl aktyordur, yəni onun üçün obraz, xarakter var. Qəhrəmanın düşdüyü vəziyyətin reallığı və insan taleyi onu narahat edir. Bir də hər şeyi olduğu kimi yaşamaq. Komediya və ya faciə isə aktyorun yaratdığı obrazın düşdüyü mühitin diktəsi ilə yaranır. Etiraf edək ki, Rövşən Hüseynov tərəf-müqabili ilə qarşılıqlı oyunu sevən, öz həmkarlarına səhnədə istənilən vəziyyətdə yaxşı ifa üçün şərait yaradan çox az aktyorlardan biridir.

Artıq yaşın 63 çağıdır. Amma buna baxmayaraq, Rövşən Hüseynovun ürəyi hələ də səhnəyə bağlı gənclər kimi döyünür. Deyir ki, indi bu yaşda da tamaşaçı qarşısına çıxanda ilk illərdəki həyəcanı yaşayıram. Bu isə yüz ilə yaxın bir vaxtda teatrla yaşayan ailə ənənəsinin süzgəcindən keçib gələn bir haldır.

**Səməd CANBAXŞIYEV**

***Son dövrlər dünya iqtisadiyyatında mövcud olan qeyri-müəyyənlik, mürəkkəb xarici iqtisadi vəziyyət, eləcə də neft gəlirlərinin azalması ölkəmizin makroiqtisadi və maliyyə sabitliyinə təsirsiz ötüşməyib. Lakin ölkə başçısı cənab İlham Əliyevin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü və uzaqgörən siyasi kursu qətiyyətlə davam etdirməsi və görülən tədbirlər nəticəsində Azərbaycan qlobal proseslərin təsirindən qorunub, əhalinin sosial müdafiəsi təmin olunub. Neft gəlirlərinin azalması ilə büdcəyə vergi daxilolmaları da azaldığından büdcəmizin sosialyönümlülüyünün saxlanılması, kiçik və orta sahibkarlara göstərilən dövlət qayğısının artırılması, ümumi biznes mühitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər büdcəyə vergi daxilolmalarının artırılmasını tələb edir. Bütün bunlar nəzərə alınaraq Azərbaycan Respublikasının Vergilər Məcəlləsində müəyyən dəyişikliklər edilib. Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə rəisi Rəşad Əliyevlə söhbətimiz də bu barədədir:***

# Vergi Məcəlləsinə edilmiş dəyişikliklər hansı zərurətdən irəli gəlib və əsas dəyişikliklər nədən ibarətdir?

***– Vergi Məcəlləsinə edilmiş dəyişikliklər hansı zərurətdən irəli gəlib?***

– Məcəlləyə edilən son dəyişikliklər, əsasən, vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması və ya vergi güzəştləri və vergidən azadolmalarla bağlıdır.

Vergi Məcəlləsinə mahiyyət baxımından olduqca ciddi sayıla bilən 201 dəyişiklik edilib, 115 yeni maddə əlavə olunub, 83 maddədə müvafiq dəyişikliklər aparılıb, 3 maddə isə çıxarılıb.

Məcəlləyə edilmiş dəyişikliklərdən biri kənd təsərrüfatı məhsullarının pərakəndə satışı üçün vergi tutma obyektinin ticarət əlavəsi, yəni pərakəndə satış qiyməti ilə alış qiyməti arasındakı fərq olduğunu, ƏDV-nin də həmin məbləğdən hesablanmalı olduğunu təsbit edib. Əvvəlki məcəllə ilə kənd təsərrüfat məhsullarının istehsalçıları vergilərdən azad edilsə də, onların məhsulları ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən bu məhsulların tam dəyəri ümumi qaydada ƏDV-yə cəlb edilir, bu da pərakəndə satış qiymətində bahalaşmaya səbəb olurdu.

Məcəlləyə edilmiş dəyişikliklərdən biri də 1 yanvar 2017-ci il tarixdən etibarən sadələşdirilmiş vergini ödəyən hüquqi şəxslərin eyni zamanda əmlak vergisinin də ödəyicisi hesab olunmasıdır. Əvvəlki məcəllədə həmin şəxslər əmlak vergisini ödəməkdən azad olunurdu.

***– Vergi Məcəlləsində mühüm dəyişikliklərdən biri də torpaq sahələrinin satışının yeni qaydada vergiyə cəlb edilməsi ilə bağlıdır. Bəs bu sahədə aparılmış dəyişikliklər nədən ibarətdir?***

– Qeyd etmək istəyirəm ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 1 yanvar 2017-ci il tarixdən etibarən torpaq sahələrinin satışı əməliyyatlarının rəsmiləşdirilməsi zamanı bu əməliyyatdan yaranan vergi öhdəliyi notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergiyə cəlb ediləcəkdir. Vergi Məcəlləsində torpaq istifadəçiləri təyinata görə 3 qrupa bölünür. Qeyd olunan torpaq sahələrindən satış zamanı vergilər yeni qaydada tutulacaq. Bu barədə ətraflı məlumat almaq üçün nazirliyin müvafiq şöbəsinə və ya rayon vergi qurumlarına müraciət etmək olar.

Əlavə olaraq qeyd edim ki, 1 yanvar 2017-ci il tarixdən etibarən kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulan, lakin təyinatı üzrə istifadə olunmayan torpaqlar üzrə fiziki şəxslərin torpaq vergisi dövlət büdcəsinə ödənilir.

***– Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən biri də sabit verginin tətbiqi ilə bağlıdır. Bu haqda məlumat verməyinizi xahiş edirik...***

– Sabit vergini ödəyən şəxslər fərdi qaydada, yəni muzdlu işçi cəlb etmədən müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxsləri əhatə edəcək. Bu ödəyicilər kiçik həcmdə gəlirlərə malik olan, məsələn, fərdi foto, audio-video xidmətləri göstərən, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri və sair analoji işlərlə məşğul olan şəxslərdir. Belə fəaliyyət növlərilə məşğul olan fiziki şəxslər vergi öhdəliklərini bəyannamə təqdim etmədən, kiçik sabit məbləğ ödəməklə həyata keçirəcəklər. Məcəlləyə həmin fəaliyyət növlərinin siyahısı və verginin dərəcələri də daxil edilib.

Bildirmək istəyirəm ki, hər hansı bir fiziki şəxs fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla), toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət növləri ilə məşğul olursa, aylıq olaraq Naxçıvan şəhəri üzrə 30 manat, digər rayon və kəndlərdə 15 manat; saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və digər analoji işlərlə məşğul olan fiziki şəxslər Naxçıvan şəhəri üzrə 10 manat, digər rayon və kəndlərdə 5 manat; çəkməçi, pinəçi fəaliyyəti ilə məşğul olan fiziki şəxslər Naxçıvan şəhəri üzrə 5 manat, digər rayon və kəndlərdə 2,50 manat; nəqqaşlıq emalatxanalarının fəaliyyəti ilə məşğul olan fiziki şəxslər Naxçıvan şəhəri üzrə 20 manat, digər rayon və kəndlərdə 10 manat dövlət büdcəsinə ödəməklə öz istəklərinə uyğun növbəti ay, rüb, yarımil və ya il üçün "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" almalıdırlar.

Fiziki şəxslər qeyd edilən fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz"i hər bir fəaliyyət növü üçün ayrılıqda alırlar.

Qeyd olunan fəaliyyət növləri ilə məşğul olan fiziki şəxs aylıq "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" almadığı təqdirdə maliyyə sanksiyası tətbiq edilir. Belə ki, təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında, təqvim ili ərzində belə hallara iki dəfə və daha çox yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləği miqdarında maliyyə sanksiyası nəzərdə tutulub.

**✍ M. MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, Füzuli küçəsi, döngə 1, ev 17-də yaşamış Qurbanov Hüseyn Şirməmməd oğlunun adına olan 3716 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 127**